## "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci, 18-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 601 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 7.2.5-ci maddədən "və başqa silahlı birləşmələrinin" sözləri çıxarılsın.

2. 8.1.14-cü maddədə "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin və həmin maddəyə "əməkdaşlığın" sözündən sonra ", o cümlədən müvafiq proqramlar çərçivəsində kadrların hazırlanması, təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində əməkdaşlığın" sözləri əlavə edilsin.

3. 14.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"14.11. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşları müvafiq icra hakimiyyəti orqanı tərəfindən açıq çıxışlarla bağlı müəyyən olunmuş qaydalara əməl etməlidirlər.".

4. Aşağıdakı məzmunda 15.2-1-ci maddə əlavə edilsin:

"15.2-1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri şəxsin həmin subyektlərdə həqiqi hərbi xidmətə (işə) qəbul olunmasından imtina edilməsi səbəblərini açıqlamaq öhdəliyi daşımırlar.".

5. 18-ci maddə üzrə:

5.1. 18.4-cü maddənin birinci cümləsindən "və başqa silahlı birləşmələrinin" sözləri çıxarılsın;

5.2. 18.5-ci maddədə "Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş" sözləri "qanunla qadağan olunmayan" sözləri ilə əvəz edilsin;

5.3. aşağıdakı məzmunda 18.6-cı maddə əlavə edilsin:

"18.6. Müvafiq icra hakimiyyəti orqanının kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət, habelə dövlət büdcəsindən və qanunla qadağan olunmayan digər mənbələrdən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar ayrılan vəsaitin istifadəsi üzərində maliyyə nəzarəti (kənar dövlət maliyyə nəzarəti istisna olmaqla) tədbirləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin kəşfiyyat və əks-kəşfiyyat tədbirləri üçün vəsaitin xərclənməsi normalarını və qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 dekabr 2024-cü il
№ 85-VIIQD